# AZƏRBAYCAN CÜMHURİYYƏTİ (1918-1920) PARLAMENTİNİN ÜZVÜ ƏSƏDULLA ƏHMƏDZADƏNİN (1860-1941) HƏYAT VƏ FƏALİYYƏTİ

Ədalət TAHİRZADƏ*

**Özət:** Bu məruzə Azərbaycan Cümhuriyyəti (1918-1920) Məclisi-Məbusanının (Parlamentinin) üzvü Əsədulla Əhməd oğlu Əhmədzadənin (1860-1941) həyat və fəaliyyəti haqqında Azərbaycan tarixşünaslığında ilk elmi araşdırmadır.

Məruzənin yazılmasında AR Dövlət Arxivi, AR Dövlət Təhlükəsizlik Xidməti Arxivi və Moskva Şəhər Mərkəzi Dövlət Tarix Arxivinin bəlgələrindən, dönəminin mətbuatından və sorğu ədəbiyyatından, Parlamentin stenoqrafik hesabatlarından, ailə arxivi materiallarından və başqa qaynaqlardan yararlanılıb.

Məruzədə Ə.Əhmədzadənin keçdiyi ömür yolu, 2-ci gildiya tacir, Bakı Lombardının direktoru, Bakı Şəhər Dumasının üzvü və Məclisi-Məbusan deputatı olaraq 1905 və 1918-ci illərdə Bakıda ermənilərin müsəlman əhaliyə qarşı təcavüzünün qarşısının alınması, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin yaradılması, "Nəşri-Maarif" Cəmiyyətinin inkişafı, yeni müstəqil Azərbaycan Cümhuriyyətinin güclənməsi... uğrunda önəmli iqtisadi, ictimai və siyasi fəaliyyəti, eləcə də 1930-cu ildəki zindan həyatı haqqında ilk dəfə olaraq geniş və hərtərəfli bilgi verilib.

Araşdırmada Ə. Əhmədzadənin varisləri haqqında bilgilər də öz əksini tapıb. Belə ki, onun oğlu, hələ çar dönəmində Moskva Kommersiya İnstitutunda və Xarkov Universitetinin tibb fakültəsində oxumuş, 1920-ci illərin başlarında Azərbaycanın İstanbuldakı konsulluğunda diplomatik korpusda çalışmış Ağa (Məhəmməd)sadıq Əhmədov (1892-1930ç3) və nəvəsi – kosmikı gəmilərin uçuş sınaqları üzrə SSRİ Dövlət Komissiyanın 25 il sədri işləmiş general-leytenant Kərim Kərimov (1917-2003) haqqında da danışılır.

***Açar Sözlər:*** *Əsədulla Əhmədzadə, Bakı Şəhər Duması, lombard, Parlament, Kərim Kərimov.*

## Life & Work of A Member of the Parliament of the Republic of Azerbaijan (1918- 1920) Asadulla Ahmedzade (1860-1941)

**Abstract:** This report is the first scientific study in Azerbaijani historiography on the life and work of a member of the Majlisi-Mabusan (Parliament) of the Republic of Azerbaijan (1918-1920) Asadulla Ahmed oglu Ahmedzade (1860-1941).

When writing the report, materials from the State Archive of the Republic of Azerbaijan, the Archive of the State Security Service of the Republic of Azerbaijan and the Central State Historical Archive of Moscow, periodicals and reference literature, verbatim reports of the Parliament, family archive materials and other resources.

For the first time, the report provided extensive and comprehensive information about the life path, as well as about the important economic, social and political activities of A.Ahmedzade, as a merchant of the 2nd guild, director of the Baku pawnshop, an active deputy of the Baku City Duma and a member of Parliament... in preventing the Armenian aggression against the Muslim population committed in Baku in 1905 and 1918, the creation of the Baku Muslim Charitable Society, the development of the Neshri-Maarif society and the strengthening of the independent Republic of Azerbaijan. A certain place in the report is occupied by his prison life in 1930.

The study also reflects information about the heirs of A. Ahmadzadeh. So, his son Agha (Mamed)sadyk Ahmedov (1892-1930), who received higher education back in tsarist times at the Moscow Commercial Institute and at the Medical Faculty of Kharkov University, worked in the diplomatic corps at the Consulate of Azerbaijan in Istanbul in the early 1920s, and his grandson, Lieutenant General Kerim Kerimov (1917-2003) was chairman of the USSR State Commission for 25 years for Flight Tests of spacecraft.

***Key Words:*** *Asadulla Ahmedzade, Baku City Duma, Pawnshop, Parliament, Kerim Kerimov.*

## Giriş

28 may 1918-ci ildə elan edilmiş Azərbaycan Cümhuriyyəti (1918-1920) xalqımızın qurduğu ilk müstəqil milli dövlət olduğuna görə onun qurucularının həyat və fəaliyyətinin öyrənilməsi tarixçilərin həm vəzifə, həm də mənəvi borcudur. 1917-ci ildə çarizmin devrilməsindən sonra bütün Rusiya ərazisində, o sıradan Azərbaycanda da hakimiyyətsizlik üzündən tüğyan edən dəhşətli anarxiyanın, iqtisadi, siyasi və inzibati böhranın aradan qaldırılmasında Cümhuriyyətin ali hakimiyyət orqanı olan Məclisi-Məbusanın (Parlamentin) müstəsna rolu var. 7 dekabr 1918-ci ildə fəaliyyətə başlamış Məclisin hər bir üzvünün keçdiyi

* Prof. Dr. Bakı Avrasiya Universiteti, adalet.tahirzade@yahoo.com; https://orcid.org/0000-0002-8207-3312

ömür yolu diqqətlə araşdırılmalıdır. Bu məruzənin müəllifi 20 ilə yaxındır ki, məhz bu sahədə araşdırmalar apararaq zəngin material toplayıb, Məclisin bir sıra üzvləri haqqında geniş yazılar dərc etdirib. Ancaq istər Məclisi-Məbusanın, istərsə də ümumən Azərbaycan xalqının ictimai-siyasi-mədəni həyatında önəmli rol oynamış Əsədulla Əhmədzadənin[1] yaşamı və gördüyü işlər ilk dəfə sistemli elmi araşdırma mövzusuna çevrilib.

## 1. Kimdir Əsədulla Əhmədzadə?

Bu suala ən geniş və ən doğru cavabı özü verib. Azərbaycan DSİ[2] müvəkkili *Ağayev* 18 fevral 1930-cu ildə zindanda Ə. Əhmədzadəni dindirib və müttəhimin öz tərcümeyi-halı ilə bağlı söylədikləri istintaq protokolunda əksini belə tapıb:

"*Atam el sənətkarı idi. Onun ölümündən sonra yaşamağa Şamaxıdan Bakıya gəldik. Dayım* ***Hacı Əliabbas Tağıyev****'gildə yaşadım. Sonralar onun qızıyla evləndim. Həmişə onun parça dükanında çalışmışam. Bundan sonra işimi dəyişib Bakı Lombardında idarə heyətinin üzvü və Lombardın direktoru olmuşam. Orada Azərbaycan sovetləşənə qədər işləmişəm. Müsavat hökuməti zamanı Şəhər Dumasından Parlament üzvü seçilmişəm. Sovet hakimiyyəti bərpa ediləndən sonra şübhələr əsasında həbs edilmiş, iki aydan sonra buraxılmışam. Bundan sonra Azərneftə işə düzələrək orada 1922-ci ilədək işləmişəm. 1922-ci ildə həkim komissiyası məni əlil kimi tanıyaraq xidmətdən azad edib. Son vaxtlar, yəni həbs olunduğum günədək evimdə müəyyən işim olmadan yaşamışam. Əmlakıma gəlincə, Karantin*[3] *küçəsi 58-də bir evim vardı, keçən il Kommunal Təsərrüfat İdarəsi əlimdən aldı. İndi əlimdə hər hansı gəlir gətirən heç nəyim yoxdur. Yaşayış qaynağım budur ki, kiçik oğlum [Əliəsgər] Bakistilikdə*[4] *işləyir və mənə kömək edir. Hal-hazırda ailəm 6 nəfərdən ibarətdir"* (***4****,* 7a).

Burada deyilənləri o, 2 gün sonra – 20 fevralda DSİ Şərq Şöbəsinin müvəkkili *Süleymanov*'a da söyləyərkən bəzi dediklərini dəqiqləşdirməli, əlavə faktlar da açıqlamalı olmuşdu. Məsələn, o, Süleymanova bildirib ki, atam on yaşım olanda (yəni 1870-ci ildə) ölüb. Məni Bakıdakı dayım *Əliabbas Tağıyev* götürərək yetişdirib. Dayım 1902-ci ildə dünyasını dəyişənədək onlarda yaşamışam. Onun oğlu olan qaynım *Ağahüseyn Tağıyev* Azərneftdə işləyirdi və təxminən 6 il bundan qabaq (yəni 1924-cü ildə) Azərneft onu İstanbula göndərib və oradan bir daha qayıtmayıb; xaricdə mühacir kimi yaşayır. Dəqiq ünvanını bilmirəm. Sovetləşmədən sonra Ağahüseynin 5 evini müsadirə ediblər. Onun ailəsi indi Bakıda "Şirvanlılar" məscidinin yanında yaşayır, dəqiq ünvanını bilmirəm. Oğullarından *Əliabbas Tağıyev*'in qulluq etdiyi müəssisə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin binasında yerləşir, *Nağı Tağıyev* Mərkəzi Statistika İdarəsində işləyir, *Tağı Tağıyev* isə Şamaxinkada pedaqoji texnikumda oxuyur. Mənim bir qızım [Fatimə] Azərneftdə neft satışı idarəsində işləyən *Abdulla Ağamalıoğlu*'nda ərdədir. Onun işlədiyi müəssisə Tağıyevin keçmiş evinin, indiki Azərbaycan Dövlət Muzeyi binasının yaxınlığındadır (***4***, 8-9a).

1930-cu ildəki dindirmə protokollarında və 844 saylı dustaq anketində Əsədulla Əhmədzadə haqqında bunlar qeyd olunub: 1860-cı ildə Şamaxı şəhərində doğulub; 70 yaşı var; valideynləri corabçıdır (ipəkdən əl dəzgahında toxuyurdular); türkdür; ASSR təbəəsidir; hal-hazırda işsizdir; partiyasızdır; məhkəmə təqibinə uğramayıb; sinfi mənsubiyyətcə şəhər sakinidir; Şamaxı şəhərində mədrəsədə oxuyub, türkcə orta təhsillidir, rusca azsavadlıdır; ailə tərkibi: yoldaşı: *Səyyarə*, 60 yaş, evdar; oğlu: *Əliəsgər*, 24 yaş; nəvələri: *Kərimağa,*[5] 12 yaş, oxuyur; *Süleyman*, 9 yaş, oxuyur; *Mustafa*, 6 yaş, körpə; ailə üzvlərinin hamısı Mustafa Sübhi

---

[1] Soyadı türkcə bəlgələrdə əsasən "Əhmədzadə", ruscalarda isə "Əhmədov" gedib. Biz ana dilindəkinə üstünlük verdik.

[2] Azərbaycan Dövlət Siyasi İdarəsi (ruscası: Государственное политическое управление – ГПУ).

[3] İndiki Həzi Aslanov.

[4] Ruscası: Бактоп («Бакинский трест по заготовке и реализации продуктов топлива») (tərcüməsi: Bakı İstilik Məhsullarının Tədarükü və Satışı Tresti).

[5] Bu, sonralar SSRİ kosmosunun fatehlərindən olmuş məşhur general Kərim Kərimovdur.

küçəsində 14-cü evdə yaşayır. Əsədulla inqilaba[6] qədər Bakı şəhərində "Lombard" Səhmdar Cəmiyyəti idarə heyətinin üzvü olub; inqilabdan sonra 1922-ci ilədək Azərneftdə anbarda dəzgahdar ("prikazçik") işləyib (***4,*** 8, 12).

Burayadək adı keçən şəxslər içərisində müstəntiqləri bir nəfər özəlliklə maraqlandırıb – Əhmədzadənin qaynı *Ağahüseyn Tağıyev*. Niyə? Çünki sovet hakimiyyəti onu Türkiyəyə işləməyə göndərmiş, o isə müsavatçılara qoşularaq İstanbulda siyasi mühacir kimi qalmışdı. Sonrakı taleyini bilməsək də AR DTX arxivində saxlanılan bir sənəd dediyimizi təsdiqləyir.

Sovet kəşfiyyatına xidmət edən bir agent Azərbaycan "ÇeKa"sına ünvanladığı tarixsiz, ancaq təxminən 1924-cü ildə qələmə alındığı anlaşılan və Türkiyədəki 5 illik fəaliyyətini geniş əks etdirən hesabatında bunları yazıb:

*"Hələ Müsavat dönəmində [İstanbulda] konsul* ***Yusif bəy Vəzirov****'un yanında türk* ***Haşım bəy***[7] *vardı;* ***Müsavat dönəminin bütün kitabları və arxivi onun əlində idi****. Günlərin bir günündə Haşım bəy Ankaradakı Zaqafqaziya Sovet diplomatik nümayəndəsi* ***İbrahim Əbilov****'la görüşüb.* ***Haşım bəy bütün sirləri və bütün arxivi ona verib****. Xasməhəmmədovçular*[8] *Haşım bəyi izləməyə başlayıblar və onun Əbilovla yazışmalarını ələ keçiriblər. Bu zaman onlar onun yerinə* ***[Əhməd Həmdi] Qaraağazadə****'ni konsul təyin etdilər. Haşım bəyin çıxarıldığını öyrənən kimi biz konsulluqda yığışaraq Qaraağazadəni qovladıq. Elə iclasdaca mən onu döydüm, açarları ondan aldım, Haşım bəyin hüquqlarını bərpa etdim.*

*Tezliklə Azərneftin təmsilçisi kimi* ***Qasımbəyov Camal bəy*** *İstanbula gəldi. Mən onu Haşım bəylə tanış etdim, Camalbəyov onu Azərneftdə işə götürdü. Təəssüf ki, Camalbəyov burada çox az qaldı. O, Bakıya qayıtmalı idi.* ***Onun yerinə başqa müsavatçı Ağahüseyn Tağıyev gəldi, müsavatçılar Haşım bəyi işdən çıxarmağı ondan xahiş etdilər və Tağıyev bunu anındaca yerinə yetirdi. Beləliklə, bolşeviklər Haşım bəyin şəxsində çox faydalı bir əməkdaşı itirdilər****. Əbilov da öldü"* (***5,*** 32).

Bizcə, artıq izaha ehtiyac yoxdur.

### 2. Ə. Əhmədzadə Bakı Şəhər Dumasında, Bakı Müsəlman Xeyriyyə Cəmiyyətində və "Nəşri-Maarif" Cəmiyyətində

Çar hakimiyyəti dönəmində Bakı şəhərinin özünüidarə orqanı Bakı Şəhər Duması idi. Çarizm bu bələdiyyə qurumunda müsəlmanların sayca çoxluğuna əsla imkan vermir, ən yaxşı halda onlara 50 faiz yer verirdi. Dumaya 1901-1904-cü illər dönəmi üçün keçirilən 7-ci seçkidə həm üzvlərin ümumi sayı 56-dan 54-ə endirildi (deməli, müsəlmanlar da 27 nəfər oldu), həm də deputatların tərkibinin üçdə biri yeniləndi. Əski müsəlman deputatlardan ("qlasnı"lardan) yeddisi öz yerini yeni deputatlara tərk etməli oldu. "Yenilər" arasında ilk dəfə olaraq Əsədulla Əhmədzadə də vardı (***27,*** 36-37; ***30, 1904,*** 186-187). Başqa sözlə desək, o, 1901-ci ildən Bakını idarə edənlər cərgəsinə qoşuldu. Bizcə, bu işdə *Hacı Zeynalabdin Tağıyev*'in qohumu olan dayısı Əliabbasın nüfuzunun müəyyən təkanı vardı. Ancaq elə düşünülməsin ki, Əhmədzadə kimlərinsə kölgəsində ucalmış birisiydi. Əsla! O, nümunəvi əxlaqı və toplum içində ağayana davranışları ilə yetərincə şəxsi nüfuz və hörmət qazanmışdı. Deyilənə görə, Hacı Zeynalabidin Tağıyevin Ağa Əsədulla böyük rəğbəti varmış və mühüm ticari sazişlərin bağlanmasında onun biliklərindən yararlanırmış. Hətta Hacının adına gələn mətbuatı və vacib sənədləri Əsədullaya həvalə etdiyi də söylənilir (***33***).

2 fevral 1902-ci ildə Şamaxıda dəhşətli zəlzələ baş verib. Bütün tikililər yerlə bir olub, yüzlərcə insan dağıntılar altında can verib, əhali evsiz-eşiksiz qalıb. Zəlzələnin törətdiyi fəsadları araşdırmaq və zərərçəkən əhaliyə yardım göstərmək üçün 4 fevralda Bakıdan Şamaxıya nüfuzlu bir komissiya göndərilib. Onun sədri böyük maarifçi *Həsən bəy Zərdabi*,

---

[6] 1920-ci il.

[7] Əsl adı "Məhəmmədhaşım" olan bu Azərbaycan türkü haqqında nisbətən geniş bilgi almaq üçün buraya baxılsın: ***15,*** VIII, 257.

[8] Xəlil bəy Xasməhəmmədli nəzərdə tutulur.

üzvləri isə muhəndis şahzadə *Şahqulu Mirzə Qacar*, tanınmış həkim *Məhəmmədrza Vəkilov*, Bakı zənginlərindən *Həsənağa Həsənzadə*, müəllim *Həbib bəy Mahmudbəyli* və Bakı Şəhər Dumasının üzvü tacir *Əsədulla Əhmədzadə*'dir. Onlarla birgə Bakıdan arabalarda, furqonlarda çörək, qənd, çay, paltar gətirilib. Şamaxı elə günə düşüb ki, komissiyanın oturması üçün salamat bir bina tapılmır, buna görə də köçərilərdən alaçıq alaraq küçədə qurublar və komissiya oradaca işləyir. Əhmədzadə və yoldaşları şəhəri başdan-başa gəzərək əhaliyə ailə üzvlərinin sayına görə pul və ərzaq yardımı göstərib (***16***, 53, 55).

"Kaspi" qəzeti 26 oktyabr 1903-cü il tarixli 230-cu sayında bir afişa dərc edib. Orada oxuyuruq ki, 27 oktyabrda müsəlman dram truppası əsərin yaranmasının 50 illiyi münasibətilə M. F. Axundzadənin "Hacı Qara" pyesini H. Z. Tağıyev teatrında səhnəyə qoyacaq. Afişada yazılıb ki, biletlər *İsgəndər bəy Məlikov, Əlibala Əliyev* və *Əsədulla Əhmədzadə*'nin mağazalarında, oyun günü isə teatrın özündə satılır (***32***). Fikrimizcə, bu fakt sonuncu mağaza yiyəsinin həm də teatra, incəsənətə marağının göstəricisidir.

Bakı Şəhər Dumasına 1904-cü ildə keçirilən 8-ci seçkidə (1904-1907-ci illər dönəmi üçün) müsəlman deputatların sayı 30-a çatıb. Dumanın bu heyətində *Əsədulla Əhmədzadə* Hacı Zeynalabdin Tağıyev, Həsən bəy Zərdabi, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağayev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Ağabala Quluyev, Hacı Aslan Aşurov, Fərrux bəy Vəzirov, Məhəmmədrza Vəkilov, Kərbəlayı İsrafil Hacıyev, İsa bəy Hacınski, Həsənağa Həsənzadə, Kərbəlayı Abdulla Zərbəliyev, Həbib bəy Mahmudbəyli, İsmayıl bəy və Kamil bəy Səfərəliyevlər... kimi bir çox görkəmli soydaşımızla yanaşı yer alırb (***27***, 36-37).

Rusiyadakı 1905-ci il inqilabının hakimiyyətə təsirini azaltmaq üçün çar rejimi millətlər arasında qırğın salmaq yolunu seçdi. Tezliklə bütün Qafqazı, o sıradan Azərbaycanı da milli münaqişə alovu bürüdü. Bakıda erməni və müsəlman əhali arasında qanlı toqquşmalar baş verdi. Ə.Əhmədzadənin artıq Bakının ən sayılıb-seçilən kişilərindən biri olmasını bu fakt da təsdiqləyir ki, milli qırğının memarlarından biri, arvadı erməni olan Qafqaz sərdarı (canişini) *İ.İ.Vorontsov-Daşkov* 10 sentyabr 1905-də Bakıya gələrək ermənilərlə müsəlmanları barışdırmaq istədiyi zaman tərəflər arasında danışıqlar aparmaq üçün yaradılmış sülh məclisinə Bakının gerçəkdən ən hörmətli, nüfuzlu şəxsləriylə birlikdə *Əsədulla Əhmədzadə* də seçilmiş və o, sülh danışıqlarında yaxından iştirak etmişdi (***20; 25***).

"Həyat" qəzeti bu münasibətlə "Bakı xəbərləri" başlığı altında yazır:

*"Dünən şənbə günü qraf Varansov-Daşkov həzrətlərinin buyurmağına görə Bakı müsəlman camaatı Qasım bəy məscidinə cəm olub erməniylə sülh və müsalimət etmək üçün zeyldə*[9] *adlanan əşxası intixab ediblər*[10]*; intixabdan əvvəl Badkubə qubernasının sədri-Məclisi və qazisi cənab Ağa Mirməhəmmədkərim ağa camaata xitabən bir nitqi-bəliğ oxuyub, camaatı asayişə dəvət edib, camaata ələlxüsus qraf həzrətlərinin biz müsəlman camaatına olan lütfü mərhəmətini bəyan edib, xalqı qraf həzrətlərinin sülh xahişini əmələ gətirməyə dəvət etdi. Camaatsa qraf həzrətlərinə dua edib onun xahişini əmələ gətirməkdən ötrü səyü təlaş etməyi vəd etdi və zeyldə yazılan əşxası sülh məclisinə intixab etdilər: Hacı Aslan Aşurov, İsmayıl bəy Səfərəliyev*[11]*, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topşubaşov, Kərbəlayı İsrafil Hacıyev, İsa bəy Hacınski, Həsənağa Həsənov, Mirzə Məhəmmədhəsən Hacınski, Kərbəlayı Abdulla Zərbəliyev,* ***Əsədulla Əhmədov,*** *Mirzə Əsədullayev, Hacıbaba Aşurov, Ağabala Quluyev, Məhəmmədrza ağa Vəkilov*[12]*.*

*Dünən saat 11-də müsəlman və erməni pişrovları*[13] *cənab general-qubernatorun evində cəm olub, Bakı erməni və müsəlmanları arasında sülh və müsalimət bina etmək üçün neçə şərtlər təqdim etdilər"* (***25***).

---

[9] Aşağıda.
[10] Şəxsləri seçiblər.
[11] Soyadı qəzetdə yanlış olaraq "Səfərəlibəyov" yazılıb.
[12] "Kaspi" qəzetindəki məlumatda *Əsəd bəy Səlimxanov* və *Murtuza Muxtarov*'un da adları var (bax: ***31***).
[13] Öncülləri, qabaqda gedənləri, liderləri.

Sülh danışıqlarını incəliyinədək araşdırmış Nəsrin Sarıəhmədoğlu "Azəri-erməni ilişkiləri (1905-1920)" kitabında müsəlman nümayəndələrinin ermənilərə 18 oktyabr 1905-ci ildə yazdığı məktubdan söz açaraq onu imzalamış 12 Azərbaycan "irəli gələni" içərisində 4-cü yerdə Əsədulla Əhmədzadənin adını çəkib (***18***, 305-306).

"Həyat" qəzeti 30 noyabr 1905-ci il tarixli sayında "Müsəlmanların ictimaı[14]" başlıqlı yazıda xəbər verib ki, 27 noyabrda Bakıda beş yüz nəfər müsəlmanın iştirak etdiyi mitinq keçirilib. *Əhməd bəy Ağayev*'in açdığı tədbirdə Bakı Dumasının üzvü *Əsədulla Əhmədzadə* də çıxış edib (***15***, V, 24).

1905-ci il inqilabı Azərbaycan cəmiyyətinin də şüurunda müsbətə doğru böyük təlatüm yaratdı. Toplum həyatında ciddi oyanış baş verdi. Xalqın maddi və mənəvi ehtiyacını ödəmək, onu hər cür təcavüz və təhlükədən qorumaq üçün müxtəlif partiyalar və ictimai qurumlar yaradılmağa başlandı. İnqilabın sonucu olaraq Bakıda da ***Müsəlman Xeyriyyə Cəmiyyəti*** yaranarkən onun özül daşını qoyanlardan biri məhz *Əsədulla Əhmədzadə* oldu. O dönəmdə jurnalistliklə peşəkarcasına məşğul olan, üçcə il sonra ilk müstəqil dövlətimizin beşiyi başında duran *Məhəmmədəmin Rəsulzadə* (1884-1955) Xeyriyyə Cəmiyyətinin 10 illiyi münasibətilə özünün "Açıq söz" qəzetinin 15 noyabr 1915-ci il tarixli sayında Bakı Müsəlman Xeyriyyə Cəmiyyətini Nizamnaməyə (***10; 23***) görə qurmuş 21 kişinin adını birbəbir sadalayıb və müəssislər qismində Ə.Əhmədzadənin də adını hörmətlə anıb (***21***).

Cəmiyyətin ilk iclasında səs çoxluğu ilə Hacı Zeynalabdin Tağıyev sədr, İsrafil Hacıyev müavin, Hacı Mustafa Rəsulov xəzinədar, Əhməd bəy Ağayev katib, İsmayıl bəy Səfərəliyev, Əlimərdan bəy Topçubaşov və Əsədulla Əhmədzadə isə İdarə Heyətinin üzvü seçiliblər (***13***, 175; ***17***, 239; ***23***).

Ə.Əhmədzadə 1905-ci ilin noyabrında rəsmən işə başlamış Müsəlman Xeyriyyə Cəmiyyətində sonrakı illərdə də fəaliyyət göstərib. Belə ki, 1907-ci ildə Cəmiyyətin sədri yenə Hacı Zeynalabdin Tağıyev, müavini Ağa Musa Nağıyev, katibi Mehdi bəy Hacınski, 3 İdarə Heyəti üzvündən biri isə yenə Əhmədzadə olub (***7***, 57).

Rusiyanın müstəbid çar hakimiyyəti müsəlmanların savadlanmasının qarşısını hər vasitə ilə almağa çalışırdı. 1905-ci il inqilabının elan etdiyi nisbi azadlıqlardan yararlanmağa çan atan Azərbaycan ziyalıları və milli burjuaziyası fürsəti əldən verməyərək, millətin maariflənməsinə xidmət göstərən təşkilatlar yaratmağa girişdilər. Yeni qurumlardan biri də "müsəlmanlar arasında maarif yayan" ***"Nəşri-Maarif" Cəmiyyəti*** oldu.

Bu Cəmiyyətin tarixini incəliklə araşdırmış *Nüşabə Məmmədova* 1906-cı ildə onun Nizamnaməsini hazırlayan və qurucusu olan 7 şəxsi bir-bir sadalayıb. Dördüncü və beşinci yerlərdə "Bakı tacirləri" Əsədulla Əhmədzadənin və onun dayısı oğlu və qaynı olan Ağahüseyn Tağıyevin adlarını oxuyuruq (***14***, 26-27).

"Nəşri-Maarif" Cəmiyyəti 1 avqust 1906-cı ildə rəsmən təsdiqlənib (***14***, 27). Onun ilk iclası 10 noyabrda Bakı Şəhər Dumasının yeni zalında keçirilib (***14***, 30). 24 noyabr 1906-cı ildə gerçəkləşən ilk seçkidə millət atası Hacı Zeynalabdin Tağıyev "Nəşri-Maarif"in də İdarə Heyətinin sədri seçilib və bütün fəaliyyəti müddətində onun fəaliyyətinə başçılıq edib. Cəmiyyətin ilk tərkibində Məhəmmədhəsən Hacınski sədr müavini olub. Təftiş komissiyası Əbdüləli bəy Əmircanov, Həsən bəy Məlikov (Zərdabi) və Məhəmmədəli bəy Nəzirovdan, katiblik Əhməd bəy Ağayev, Əliisgəndər Cəfərov və Məhəmmədhəsən Əfəndiyevdən ibarət təşkil edilib, Ağahüseyn Tağıyev xəzinədarlığa layiq görülüb (***14***, 32-36; ***15***, VII, 124; ***26***). N.Məmmədova Azərbaycan arxivlərindəki sənədlərə əsasən tərtib etdiyi "Nəşri-Maarif" Cəmiyyəti İdarə Heyəti həqiqi üzvlərinin siyahısında 21-ci yerdə II gildiya tacir, Bakıda xüsusi lombardın direktoru "Nəsrulla Əhmədov"u göstərib (***14***, 158). Əlbəttə, həmin şəxs Əsədulla Əhmədzadədən başqası ola bilməz və onun adı, çox güman ki, sənədlərə belə yanlış düşüb.

---

[14] Mitinqi.

Rəsmi açılışdan bir qədər sonra İdarə Heyətinin üzvü Murtuza Muxtarov Bakıda Şamaxı küçəsində yerləşən 18 min manat dəyərindəki mülkünü "Nəşri-Maarif" Cəmiyyətinə bağışlayıb (***14**,* 42-43).

"Nəşri-Maarif" Cəmiyyətinin çox güclü heyəti vardı və buna görədir ki, o, Azərbaycanın maarif tarixinə töhfə sayıla biləcək çox faydalı işləri gerçəkləşdirə bilib (mövzumuzla birbaşa bağlılığı olmadığına görə bu barədə geniş danışmırıq). Təkcə bunu qeyd etmək yetərlidir ki, 1907-ci ildə Bakı Şəhər Dumasına keçirilən 9-cu seçkidə onun İdarə Heyətinin 19 üzvü (!) 4 illiyinə (1907-1910-cu illər üçün) bu orqanın deputatı seçilib (***14**,* 37). Onların arasında, əlbəttə, Əsədulla Əhmədzadə də var (***28***).

Maraqlıdır ki, Sankt-Peterburqda çıxan "Мир Ислама" ("İslam dünyası") dərgisi "Nəşri-Maarif" Cəmiyyətinin tarixi və onun 1912-ci ilədək fəaliyyəti haqqında 1913-cü ildə 5 səhifəlik, ancaq hərtərəfli bir məqalə dərc edib.[15] Orada Cəmiyyətin üzvləri arasında 8-ci yerdə Əsədulla Əhmədzadə qeyd olunub.

Bunu da hökmən bildirmək gərəkdir ki, öz çağının çoxsaylı arxiv sənədlərində və mətbuatda Əhmədzadənin həm adıkeçən qurumlardakı, həm də Bakı Şəhər Dumasındakı fəaliyyəti əsasən müsbət dəyərləndirilib. Məsələn, "Bakılı" imzalı bir yazar "Bakinets" qəzetindəki "Bakı Şəhər Dumasının ziyalı deputatları haqqında" məqaləsində Dumadakı deputatlarla bağlı düşüncələrini belə açıqlayıb:

*"Yerli mətbuatda ümumən şəhər işləri haqqında və **şəhərimizin ataları** haqqında çox, lap çox yazılıb. ...Bakı şəhərinin deputatları haqqında danışılarkən hökmən beynimdə Hacıyev İsrafil, Səfərəliyev İsmayıl bəy, **Əhmədov Əsədulla,** Həsənov Həsənağa, Sadıqov Nəcəfqulu, Tağıyev Hacı Zeynalabdin, ...Hacınski İsa bəy, Aşurov qardaşları, Rəsulov və bir neçə başqasının surəti canlanır"* (***22; 26***).

Rusiyanın paytaxtı Sankt-Peterburqdakı Hökumət Senatı özünün 6 noyabr 1908-ci il qərarı ilə həmin ayın 17-sində Əsədulla Əhmədzadəyə *şəxsi fəxri vətəndaş* rütbəsi verilməsi haqqında 2844 saylı şəhadətnamə təqdim edib (***6**,* 5). Sənədin məzmunundan anlaşılır ki, imperator 6 dekabr 1907-ci ildə Bakı şəhərinin 2-ci gildiya taciri Əsədulla Əhmədzadəyə Zaqafqaziya Canişinliyi üzrə göstərdiyi müstəsna əməyinə və xidmətlərinə görə adıkeçən rütbənin verilməsinə icazə verib. Təəssüf ki, sənəddə "müstəsna əmək və xidmətlər"in nədən ibarət olduğu açıqlanmayıb. Ancaq bu cür rütbə və mükafatlar, adətən, şəxsin hakimiyyət orqanlarına hər hansı bir sahədə göstərdiyi maddi yardımlarla bağlı olurdu.

1911-ci ilin 31 martında Bakı Şəhər Dumasına 10-cu seçki keçirilib. Əhmədzadə bu seçkidən qalib çıxa bilməyib və onun çar dönəmindəki Duma fəaliyyəti başa çatıb (Cümhuriyyət dönəmində yenidən Duma üzvlüyünə bərpa edilib). Bundan sonra o, ticarətlə və lombarddakı işi ilə məşğul olub.

### 3. Qanlı Mart Günlərində Bakı Küçələrində Erməni Güllələri Altında Topçubaşovla Çiyin-Çiyinə

Tacir Ağa Əsədulla Əhmədzadənin başı həmişəki gündəlik işlərinə qarışıb. Necə deyərlər, dindirib-söylədən yoxdur. Arada kiməsə, hansı quruma pul, yardım lazım olanda yada düşür və "vətəndaşlıq borcunu yerinə yetirməyə" dəvət olunur. Məsələn, 1916-cı ildə onu Bakı Mariya qızlar məktəbi hamilər şurasının üzvü vəzifəsində görürük (***30, 1917**,* 352). Bu hamilər ilk növbədə əllərini ciblərinə salmaqla mükəlləfdilər...

Adi və dinc həyat 1918-ci ilin martınadək beləcə davam etdi. Martda isə təkcə Bakıda deyil, ümumən Azərbaycanda ermənilər dəhşətli faciələr törətdilər, millətimizə qarşı soyqırımı gerçəkləşdirdilər. Bu tarixin təsvirindən yan keçərək yalnız mövzumuzun qəhrəmanı Əsədulla Əhmədzadənin həmin günlərdəki yaşantılarını iki görkəmli şəxsin: Əlimərdan bəy Topçubaşov və Əbdüləli bəy Əmircanovun yazılı xatirələrinə əsasən canlandıracağıq.

---

[15] Bax: Общество «Нешри-Маариф» в Баку. // «Мир Ислама», том II, выпуск VII. СПб., 1913, сс. 500-504.

Həmin vaxt Bakı Müsəlman Komitəsinin sədri olmuş *Əlimərdan bəy Topçubaşov'*un (1863-1934) "17-26 mart 1918-ci il dönəmində bildiyim hərəkət və hadisələr toplusu" adlı rusca xatirələrində Əsədulla Əhmədzadənin də ozamankı fəaliyyəti yetərincə geniş işıqlandırılıb (***19***, 67, 69, 71-76, 80).

Əlimərdan bəyin yazdığına görə, 17 mart 1918-ci ildə "İsmailiyyə" binasında Bakı Müsəlman Komitəsinin otağında müsəlmanların yığıncağı keçirilib. Orada ruhanilərdən Hacı Mirmövsüm, Hacı Molla Cavad, üzvlərdən Abbasqulu Kazımzadə, Behbud xan Cavanşir, Əsədulla Əhmədzadə və başqaları iştirak edib. İclasın sədri Hacı Mirmövsüm bildirib ki, səhər saat 9-da Təzəpir məscidində müsəlmanların mitinqi keçirilib, orada seçilən 12 nəfərlik heyətə tapşırılıb ki, İcraiyyə Komitəsinə[16] təklif etsinlər ki, müsəlman atlılarının alınmış silahları axşam saat 6-yadək qaytarılsın. Saat 6-da mitinq yenidən toplanacaq və Hacı Mirmövsüm camaata cavab bildirəcək. Bu zaman Ter-Mikaelyan gələrək Erməni Milli Şurası adından bəyan edib ki, ermənilər qonşuları müsəlmanlarla dinc yaşamaq istəyir. Əsədulla Əhmədzadə cavab verərək müsəlman və ermənilərin ümumi yığıncağını çağırmağı təklif edib və Ter-Mikaelyan bununla razılaşıb (***19***, 67).

Müsəlmanlar və ermənilər "İsmailiyyə"də ümumi yığıncaq keçirməli imiş, ancaq Erməni Milli Komitəsinin nümayəndəsi Ter-Qazarov bildirib ki, ermənilər müsəlmanları "Metropol" otelində gözləyir. Ora getmək istərkən pulemyot atəşi ilə qarşılaşıblar. Əlimərdan bəy, Ter-Qazarov, Əsədulla Əhmədzadə və başqaları yalnız gecə saat 11-12-də evlərinə dönə biliblər. Bütün gecə atışma gedib.

Atışma 18 mart gecəsi saat 4-də lap güclənib. Ermənilər pulemyotlardan və toplardan atəş açıb. Əlimərdan bəy yazır ki, 19 mart səhər saat 9-da yanıma Əsədulla Əhmədzadə, sonra Əbdüləli bəy Əmircanov gəldilər. Abbasqulu Kazımzadə Əmircanovun mənzilindəki telefonla Ağa Aşurovla danışdı. Ermənilər də toplaşıb. Müsəlmanlar İcraiyyə Komitəsindən bu qırğını dayandırmağı xahiş ediblər (***19***, 69).

19-u günü şəhərdə qırğın gedib. Onun qarşısını almaq üçün müsəlman və ermənilərdən ibarət barışıq heyəti yaradılıb ki, ermənilərin Hərbi İnqilabi Komitə ilə danışıqlar aparsın. Heyətə müsəlmanlardan Əlimərdan bəy, Əsədulla Əhmədzadə, Abbasqulu Kazımzadə, Ağa Aşurov və Əbdüləli bəy Əmircanov, ermənilərdən Artyunov və Ter-Qazarov daxil olub. Onlar İcraiyyə Komitəsinə gediblər. Orada ermənilərlə 5 maddəlik sülh şərtləri müzakirə edilib (***19***, 71). Ermənilərlə sülh şərtləri iki nüsxədə yazılıb və onu hər iki tərəf imzalayıb. Geri dönərkən şəhərin müxtəlif yerlərində erməni əsgərləri onlara düşməncə münasibət bəsləyib və bir çoxu barışıq istəmədiyini bildirib. Axşam saat 9-da Əhmədzadə, Molla Hənifə, Kazımzadə, Həsənov, Aşurov, Əmircanov sülh bağlamağa qarşı olan və qırğında müsəlmanları günahlandıran iki zabit və dörd əsgərin müşayiəti ilə geri dönüblər. Gecə nisbətən sakit keçib (***19***, 72).

20 mart saat 12-də Caparidze xəbər verib ki, şəhərdə bütün dinlərin nümayəndələrindən ibarət sülh nümayişi keçiriləcək. Bir daşnak hərbçisi gələrək onu Ter-Qazarovun göndərdiyini bildirib və Əlimərdan bəyə təhlükəsizlik üçün ailəsi ilə birgə onlara köçməyi təklif edib. Ancaq Əlimərdan bəy razılaşmayıb ki, camaatımız tez-tez mənə müraciət edir. Əsədulla Əhmədzadə də bununla razılaşmayıb. Həmin hərbçi Əsədulla Əhmədzadəni Orlov küçəsindəki kürəkəni Kərimovun evinədək ötürüb və oradan Əhmədovun və Kərimovun ailələrini Əlimərdan bəygilə gətirib (***19***, 73). Şəhərdə sülh heyətinin üzvlərindən Hacı Mirmövsümün və bir sıra başqalarının öldürülməsi xəbəri yayılıb. Ə.b.Topçubaşov, Ə.Əhmədzadə, A.Aşurov, Ə.b.Əmircanov, A.Kazımzadə və başqaları şəhərə çıxıblar və bir çox yerdə meyitlər görüblər. Deməli, ermənilər sülh şərtlərini pozublar (***19***, 74). Şəhəri gəzərkən Rus Xeyriyyə Cəmiyyətinin sığınacağı yanında təxminən 130 nəfərin toplaşdığını

[16] Bakı Fəhlə, Əsgər və Matros Deputatları Şurasının İcraiyyə Komitəsi nəzərdə tutulur. Onun sədri Stepan Şaumyan idi. 31 oktyabr 1917-ci ildən bolşeviklər bu İcraiyyə Komitəsini Bakıda ali hakimiyyət orqanı elan etmişdilər.

görüblər. Həmin ruslar Topçubaşov, Əhmədzadə, Aşurov və başqalarına müsəlmanların onları qoruduğuna görə təşəkkür ediblər (***19***, 75).

21 martda sülh heyətinin üzvləri şəhərdəki durumu öyrənmək üçün gəzməyə davam ediblər. Təzəpir məscidində həkim *Bəybala bəy Sultanov*'un tabutunu görüblər. Topşubaşov, Əhmədzadə, onun qardaşı və başqaları Bazar (indiki Azərbaycan) küçəsinə enərkən burada bir dəstə erməni əsgəri ilə qarşılaşıblar. Gəzdikləri küçələrdə də çoxlu meyitlər görüblər (***19***, 76).

Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən biri, ömrünü qardaş Türkiyədə siyasi mühacir kimi başa vurmuş *Əbdüləli bəy Əmircan(ov)* (1874-1948) "Böyük Ermənistan xəyalı və Qarsdan Qarabağa erməni vəhşəti" adlı kitabda (*11*) 1918-ci ilin mart qırğını zamanı öz gözləri ilə gördüklərini təsvir edib. Onun da xatirələrində Əsədulla Əhmədzadə erməni vəhşiliyinin qarşısını almağa çalışan fədakar bir insan kimi canlanır.

Hadisələrin gedişini sanki ən dəqiq şəkildə protokollaşdırmağa çalışan Topçubaşovdan fərqli olaraq Əmircan(ov) baş verən hadisələrin mahiyyətini, səbəblərini də açıqlamağa cəhd edib. O, hadisələrin təsvirinə bu cümlələrlə başlayır ki, hər nə bahasına olursa-olsun Bakıya hakim olmağa qərar vermiş ermənilər, nəhayət, 18 mart 1918 axşamı saat 17-də türklərə qarşı hücuma keçdilər. Qarşılıqlı atşmalar səhər saat 5-ə qədər davam etdi. Tam bu saatda Bakı şəhəri müdhiş bir cəbhə halını almışdı (***11***, 81).

18 mart günü baş verənləri Əbdüləli bəy belə təsvir edib:

*"O gün saat 7-yə doğru Bakının tanınmış türklərindən İsa bəy Aşurbəylinin evində altmış kişilik bir qrup toplandı. [...] Türklər o sırada rusca olaraq intişar etməkdə olan "Kaspi" qəzetəsinin baş mühərriri olan Əlimərdan Topçubaşıya telefon etdilər. Əlimərdan ... toplantıda bulunanlardan bir neçə kişinin bir yolunu bulub yanına gəlmələrini bildirdi. Təhlükə çox böyük və ermənilərin arasından keçmək imkansız kimi idi. Yalnız iki kişi Əlimərdanın dəvətini qəbul etdi... O əsnada Əlimərdanın yanında Milli Komitə üzvlərindən doktor Məhəmmədrza [Vəkilov], Əsədulla Əhmədzadə, mühəndis Ağa Aşurlu və Abbas Kazımzadə bulunurdular"* (***11***, 83).

*"O gün günortadan sonra ermənilər "Kaspi" qəzetəsini basdılar, mətbəəni dağıtdılar və bu şəkildə hərəkətlə vəhşi hirslərini təmin edə bilməyincə həmən mətbəənin yanında bulunan və "İsmailiyyə" adını daşıyan İslam Cəmiyyəti-Xeyriyyəsinin əzəmətli binasını yandırdılar. Bu binada İslam Cəmiyyəti-Xeyriyyəsindən başqa Milli Komitə və bir neçə yeni qurulmuş partiya idarələri və bir çok odalarında da Bakıya sığınan türk əsirləri yerləşirdi"* (***11***, 84).

Ermənilərlə sülh bağlamaq üçün göndərilən heyətin tərkibində Mərkəzi İcraiyyə Komitəsinə yollanmış Əbdüləli bəy də şahidi olduqlarını ürək sızıltıları ilə qələmə alıb. O yazır ki, yol boyunca on minlərcə erməninin arasından min bir çətinliklə keçərək Mərkəzi İcraiyyə Komitəsinə gedə bildik. Şaumyan bir çox rus və erməni irəli gələnləriylə bərabər bizi gözləyirdi. İçlərində yalnız bir türk vardı – Məşədi bəy [Əzizbəyov]. Şaumyan dərhal hücuma keçərək: "Nə deyə rus inqilabının əleyhində bulunursunuz?" – dedi. Bu sözləri gözləməyən biz türklər dəvət edilməyimizin pis nəticələr verəcəyini düşündük. Topçubaşı dərhal soruşdu: "Hansı hərəkətimizdən şübhə etdiniz? Bizə niyə bu qədər böyük haqsızlıqlar edirsiniz?.. Biz bir ovuc türk necə olur da qosqoca bir rus inqilabını məhv edə bilərik?". Bir müddət qarşılıqlı və şiddətli münaqişələr olduqdan sonra bir sənəd tərtib olundu və biz türklər bolşevik inqilabını qəbul etdik.

Bəlgəni Topçubaşı (Milli Komitə rəisi), [Əbdüləli bəy] Əmircan, İslam Cəmiyyəti-Xeyriyyəsi adından doktor Məhəmmədrza [Vəkilov], mühəndis Ağa Aşurlu və Əsədulla Əhmədzadə imzalayıblar. Milli Komitənin üzvü olan bu şəxslər Bələdiyyə Ümumi Məclisi (Bakı Şəhər Duması) adından və Molla Cavad [Ağaəlizadə] də ruhanilər adından atəşin tamam kəsilməsini istəyib. Onlara bu haqda söz verilib, ancaq ermənilər o gün sözlərini yerinə yetirməyiblər (***11***, 90).

Əbdüləli bəy xatirələrini belə sonlandırır:

*“Biz dörd kişi yalnız qalmışdıq: Topçubaşı, Dr. Məhəmmədrza, Əhmədzadə Əsədulla və mən Əmircan. Ortada qalmışdıq. Bizi hanında Mirtağımunun*[17] *evinə aldılar. Vaxt axşama yaxındı. Baxdıq, orada toplu halında bir komitə gördük. Komitə iyirmi beş kişidən mütəşəkkildi və hərarətli münaqişələr cərəyan edirdi. Bizi sevincllə qarşıladılar. Onlara bildiyimizi, yapdığımızı anlatdıq. Üç gündən bəri acdıq. Bizə yemək verdilər və bitkin bir halda yatdıq”* (***11***, 97).

### 4. Azərbaycan Cümhuriyyətinin (1918-1920) Xidmətində

1918-ci il Mart qırğınlarından sonra Bakıda hakimiyyəti tam ələ keçirmiş Şaumyan iqtidarı siyasi rəqiblərindən, ilk növbədə müsavatçılardan qurtulmaq üçün 10 apreldə Bakı Şəhər Dumasını ləğv etdi və onun vəzifələrini xüsusi şəhər təsərrüfatı şöbəsinə həvalə etdi. Hələ Gəncədə yerləşən Azərbaycan Cümhuriyyəti hökuməti 30 iyul 1918-ci ildə ictimai özünüidarələrin fəaliyyətinin bərpa olunması haqqında qərar çıxardı. Bakı düşmənlərdən təmizləndikdən 3 gün sonra 28 sentyabrda isə Bakı Şəhər Duması Rusiya Müvəqqəti Hökumətinin 1917-ci il 9 iyun tarixli qanununa əsasən seçilmiş tərkibində bərpa olundu və ona tərkibini öz istədiyi kimi artırıb 80 nəfərə çatdırmaq ixtiyarı verildi. Dumanın fəaliyyəti bərpa edildiyi zaman deputatların xeyli hissəsi anarxiya üzündən qaçıb dağıldığına, pərən-pərən düşdüyünə görə Duma Cümhriyyət hökumətinin icazəsi ilə münasib saydığı şəxslər hesabına öz tərkibini tamamlamışdı. Əsədulla Əhmədzadə də bu yeni tərkibə salınmışdı. “Azərbaycan” qəzeti 15 noyabr 1918-ci il tarixli sayındakı “Bələdiyyə Məclisində” başlıqlı xəbərdə bildirib ki, noyabrın 12-sində Qasım Qasımovun sədrliyi ilə keçirilən Bələdiyyə Məclisinin iclasında “qlasnı” (deputat) Əsədulla] Əhmədzadə Bələdiyyə İdarəsi heyətini azaldan komisyonun fəaliyyəti barəsində məlumat istəyib və bundan sonra “Bələdiyyə Məclisi Bələdiyyə İdarəsinə və xüsusi komisyona təklif etmişdir ki, təcili surətdə işbu məsələni həll edərək nəticəsini yaxın iclasda pişnəhad (təqdim) etsin” (***9***, 273; ***24***, № 40).

Yeni qurulmuş Cümhuriyyəti idarə etməyə hökumətin gücü çatmırdı, buna görə də idarəedici orqan olaraq Məclisi-Məbusan (Parlament) yaratmaq qərarına gəlindi və hökumət bu işə yardım göstərməsi üçün Məhəmmədəmin Rəsulzadəyə müraciət etdi. Azərbaycan Milli Şurası bərpa olundu və o, seçkilərin təşkili üçün əlindən gələni etdi. Milli Şuranın 44 üzvü birbaşa Məclisi-Məbusan üzvü sayıldı. Yerdə qalan deputatları isə həm partiyalar, müxtəlif ictimai qurumlar təklif etdi, həm də yerlərdə keçirilən seçkilər nəticəsində 120 nəfər müəyyənləşdirildi.

1 dekabr 1918-ci ildə Bakı şəhəri müsəlman əhalisi nümayəndələrinin Azərbaycan Parlamentinə seçkiləri üçün Bakı Şəhər Duması müsəlman deputatlarının iclası keçirilib. Məclis üzvlüyünə namizədlər yazılı qeydlər verməklə irəli sürülüb. Əsədulla Əhmədzadə də daxil olmaqla 22 namizəd qeydə alınıb və onlardan yalnız aşağıdakı 8 namizəd kürələrlə səsverməyə buraxılıb. Ə.Əhmədzadə bu seçkini uduzdu (***3***, 41-42).

Bu yenilgini soyuqqanlılıqla, təmkinlə qarşılayan Ağa Əsədulla heç nə olmamış kimi Bakı Dumasında öz işlərini davam etdirdi. “Azərbaycan” qəzeti 3 yanvar 1919-cu il tarixli sayındakı “Ətrafdakı kəndlərə ərzaq paylamaq barəsində” yazısında Duma üzvü Əhmədzadənin fəaliyyətini alqışlayaraq oxucularına bəyan edib ki, 8-9 ay fasilədən sonra, bu aydan bəri Bakı ətrafındakı kənd camaatına da hərdənbir ərzaq və ya sair əşya paylamağa başlanıb. Bakı Bələdiyyəsi Şurasında Bakı şəhəri əhalisinə qənd, çay paylanmaq məsələsi müzakirə edildikdə Əsədulla Əhmədzadə Dumaya deyib ki, Qəzet tutalım bizim kəndçilərimiz avamdır və öz dərdlərini deyib-danışmağa qüdrətləri yoxdur və yenə də tutalım ki, ağlamayan uşağa süd verməzlər, bəs siz qlasnıların və daha doğrusu, ərzaq işlərinə baxan adamların insafı necə rəva görür ki, 9 ay boyunca hər ay şəhər əhlinə qənd-çay paylayıb,

---

[17] Yanlış olduğu aydındır; çox güman ki, “Mirtağının” olmalıdır.

hərdənbir də manufaktura və sair ehtiyaclarını ödəmiş, ancaq biçarə kənd əhalisini yaddan çıxarmısınız?

Qəzet yazır ki, "qlasnılar bir daha başqa bir Əsədulla kiminin "nahəmvar" sözlərini eşitməmək üçün dərhal əllərini qaldırmaqla razılıq verdilər ki, kənd camaatına da qənd, çay və manufaktur paylansın" (***9***, IV, 54; ***24***, № 78).

Ölkədəki ağır iqtisadi durum Müsəlman Xeyriyyə Cəmiyyətini yenidən dirçəltməyi tələb edirdi, çünki xəzinəsində siçanlar oynayan bir hökumətin gücü ilə xalqın ehtiyaclarını ödəmək mümkün deyildi. Buna görə də 7 fevral 1919-cu ildə Şəhər Dumasının zalında Cəmiyyəti-Xeyriyyənin ümumi iclası keçirilib. Yığıncaqda gizli səsvermə ilə aralarında Əsədulla Əhmədzadə də olmaqla İdarə Heyətinin 12 nəfər üzvü seçilib (***9***, V, 147; ***24***, № 110).

Ertəsi günü – 8 fevralda Bakı Bələdiyyə İdarəsində Xeyriyyə Cəmiyyəti İdarəsinin ilk iclası keçirilib. Qasım Qasımzadə Cəmiyyətin sədri, Əbdüləli bəy Əmircanov sədr müavini, Musa bəy Əmircanov xəzinədar, Mehdi bəy Hacınski katib seçiliblər. "İsmailiyyə" binasına baxıb orada mümkün olduqca yaxın zamanda bir neçə mənzil təmir etdirmək üçün bir heyət yaradılıb və bu heyətə İsmayıl bəy Səfərəliyev, Əsədulla Əhmədzadə və Abbasəli Kərimov[18] daxil edilib (***9***, V, 195-196; ***24***, № 113).

"Azərbaycan" qəzetinin 18 fevral 1919-cu il tarixli nömrəsində "Bakı Müsəlman Cəmiyyətı-Xeyriyyəsi tərəfindən Bakı əhalisinə xitab" dərc edilib. Sədr Qasım Qasımzadə və üzvlər: Azərbaycan müftisi Mustafa əfəndi [Əfəndizadə], şeyxülislam Axund Molla Ağa Ağaəlizadə, Bakı qazisi Axund Molla Əbdürrəhim Hadizadə, Axund Mirməhəmmədkərim Mircəfərzadə, İsmayıl bəy Səfərəliyev, *Əsədulla Əhmədzadə,* Mirzə Əsədullayev, Qəni Məhəmmədov, Musa bəy Əmircanov, Yusif Mehdiyev, Abbas Eyvazov və katib Mehdi bəy Hacınskinin imzaladıqları müraciətnamə bu cümlələrlə bitir:

*"İştə Mart hadiseyi-əliməsindən sonra fəaliyyətini tərkə məcbur olan Müsəlman Cəmiyyəti-Xeyriyyəsi yenidən işə başlayır. İqtidarı yetdiyi qədər füqəranın dərdinə qalacaqdır. Düşkünlərin siyahısını tutmaqdan ötrü lazımi tədbirlər ittixaz olunur*[19] *. Cəmiyyəti-Xeyriyyə işə başlarkən, əlbəttə, sahibi-sərvətlərin, sahibi-xeyratların və camaatın həmiyyətinə güvənir. Camaat! Fəqirlər amangahı olan bu Cəmiyyətə müavinət edilməsə, Cəmiyyətin əlindən bir şey gəlməz. Ona görə də Cəmiyyət işbu xitabnamə ilə möhtərəm əhaliyə müraciət edərək düşkünlərə və acizlərə müavinət edən bu Cəmiyyətə həmiyyət əlini uzatmalarını tövsiyə edir. Haydı, vətəndaşlar, həmiyyət günüdür! Füqəraya, düşkünlərə, məsum tifillərə böylə ağır günlərdə müavinət ediniz"* (***9***, V, 243-244; ***24***, № 116).

Bakı Dairə Məhkəməsi sədrinin əvəzi 3 mart 1919-cu ildə Azərbaycan Cümhuriyyəti ədliyyə nazirinə məhkəmə prokuroru ilə razılaşdıraraq tərtib etdiyi müsəlman əhalisindən fəxri sülh hakimləri vəzifəsini tutmağa layiq, cinayət işlərinin çözülməsinə yardımçı ola biləcək 17 nüfuzlu şəxsin siyahısını təqdim edərək onların təsdiqlənməsini istəyib (***1***, 1). Ədliyyə naziri əvəzi Teymur bəy Makinski 18 mart tarixli əmrlə cəmi 12 nəfəri, o sıradan müsəlmanlardan Hacı Zeynalabdin Tağıyev, Nəcəfqulu Sadıqov, Əliağa Həsənov, Ağahüseyn Tağıyev, Əbdüləli bəy Əmircanov, Ağa Aşurov, Sultanməcid Qənizadə və *Əsədulla Əhmədov'*u 1 yanvar 1919-cu ildən üç illiyinə Bakı Dairə Məhkəməsinin fəxri sülh hakimi təyin edib (***1***, 12).

Bakıdakı qanlı Mart hadisələrinin bir illiyi qeyd edildiyi zaman – 31 mart 1919-cu ildə "Azərbaycan" qəzeti "Mart hadiseyi-əliməsinin müxtəsər tarixçəsi" adlı geniş bir məqalə dərc edib. Həmin yazıda Əsədulla Əhmədzadənin də Mart günlərindəki fəailiyyətinə toxunulub (***9***, 445-451; ***24***, № 147).

Bakı şəhərinin başçısı P.İlyuşkin 8 aprel 1919-cu ildə Ə.Əhmədzadəyə 1302 saylı belə bir imzalı-möhürlü vəsiqə verib ki, Bakı Şəhər Duması müsəlman deputatlarının

[18] General Kərim Kərimovun atası.
[19] Tədbirlər görülür.

("qlasnı"larının) 30 mart 1919-cu ildə keçirilmiş iclasında deputat Əsədulla Əhmədzadə Parlament üzvü seçilib (***2***, 7). Beləliklə, Ağa Əsədulla 1918-ci ilin 1 dekabrında Parlament seçkilərində uğradığı məğlubiyyəti dörd aydan sonra qələbəyə çevirməyi başarıb. Azərbaycan Məclisi-Məbusan İdarəsi 10 aprel 1919-cu ildə "Əsədulla Əhmədzadə"yə Parlament üzvü olduğunu təsdiqləyən 977 saylı müvəqqəti vəsiqə verib (***2***, 61, 67). Niyə müvəqqəti? Çünki onun Parlament üzvü olması hələ Məclisi-Məbusanın ümumi yığıncağında təsdiqlənməliydi. Məclisin 14 apreldəki 29-cu iclasında Göyçaydan Rza bəy Ağabəyov və Bakı Bələdiyyə İdarəsindən Əsədulla Əhmədzadə və Əsəd bəy Əmirovun deputat seçilməsi gündəliyə salınsa da müzakirəyə vaxt qalmayıb (***8***, I, 438). 24 apreldəki 32-ci iclasda Məclisi-Məbusan etimadnamə komissiyonunun sədri Şəfi bəy Rüstəmbəyli məruzə edərək bildirib ki, Bakı Bələdiyyə İdarəsi Əliağa Həsənov ilə Ağa Zeynal Tağıyevi Parlaman üzvü seçmişdi. Ə.Həsənov maliyyə naziri müavini və indi də maliyyə naziri olduğuna, A.Z.Tağıyev də üzvlükdən çıxarıldığına görə Məclis üzvü sayılmırlar. Bələdiyyə İdarəsində keçirilən seçkidə Əsədulla Əhmədzadə 24 səslə və Əsəd bəy Əmirov 15 səslə Parlaman üzvü seçiliblər. Etimadnamə komisyonu onların seçki protokollarına baxaraq düz olduğunu qəbul edib və təsdiqini Parlamana təklif edir. Məclis üzvləri əksəriyyət səslə bu təklifi təsdiqləyib (***8***, I, 466-467; ***9***, 563; ***24***, № 169).

28 may 1919-cu ildə Məclisi-Məbusanın böyük bayram münasibətilə fövqəladə təntənəli (42-ci) iclası keçirilib. Sədr Həsən bəy Ağayev deputatları təbrik edib. Məhəmmədəmin Rəsulzadə, Əhmədcövdət Pepinov və başqaları ilə yanaşı Əsədulla Əhmədzadə də nitq söyləyib (***9***, VII, 459; ***12***, 136; ***24***, № 191). O, çox da səlist olmayan çıxışında deyib:

*"Cənab məbuslar! Müxtəsər edəcəyəm, özüm də öz loru dilimizdə danışacağam. Mən elə bilirəm bu kürsüdən deyilən sözlər havada da vardır. Yeddi yaşında uşaqlar da deyir, küçələrdə deyirlər; mən elə bilirəm millət bundan sonra bunları yaddan çıxarmaz. Cəmi tarixlərdə deyilir ölü dirilməz. Biz də çox müsibətlər çəkdik, o çəkdiyimiz müsibətlər, bu küçələrdə gördüklərimiz arvad-uşaqlarımızın da yadından çıxmamışdır. Biz bu vaxtadək heç kəslə dava etmək istəməmişik, ancaq arzumuz bu olubdur bizə dəyməsinlər. ... Bizim üçün xoşbəxtlikdır ki, bu qissələri gördük; camaat bir daha dala qayıtmayacaqdır. (Alqış). ... Uşaq ki bir kərə xörəklərin dadını bildi, daha sonra süd yeməz. Camaat da istiqlaliyyətin dadını bildi, ona bir daha süd yedirtmək olmaz. Mən deyərdim o adamlar ki öz millətlərinin xoşbəxt olmağını istəyirlər, bunu bilməlidirlər ki, nə qədər ki, sənin yoldaşın səndən aşağıdadır, sənin pəncərəni sındıracaq, amma mən elə görürəm ki, dünən, srağagün əsgərlərimiz sərhəddə gedərkən birisi bunlara qoşulub evlərinə xəbər göndərmişdir ki, anam məni halal eyləsin, mən gedirəm, halbuki hələ ona "get" deyən yoxdur. Buna görə müsəlman tayfası, Azərbaycan milləti paxıl deyildir. Öz qonşularımızın xoşbəxtliklə yaşamasını istəyirik.*

*Yaşasın Azərbaycan hökuməti və camaatımız! Hökumətimiz... bilməlidir ki, hər zaman camaat onun dalındadır. Yaşasın Azərbaycan hökumətimiz və Parlamanımız. (Sürəkli alqış)"* (***8***, I, 634-635).

Məclisi-Məbusanın 5 iyun 1919-cu ildəki 45-ci iclasında bitərəf Əsədulla Əhmədzadəni yenidən kürsüdə görürük. Artıq Denikin Cümhuriyyətin istiqlalını təhdid etməyə başlayıb. Ağa Əsədulla məclisdaşlarına üz tutaraq söyləyir:

*"Cənab məbuslar! Mən ikinci kərədir ki, bu kürsüyə çıxıram. Hamı sizə deyir "cənab məbuslar". Mən isə bu gün deyirəm "cənab qardaşlar"! İş belə gəldi ki, hərçənd mən bitərəfəm və bizə "bitərəf" deyirlər, lakin ev davasında elə ki qıraqdan oğru gəldi və o vaxt bitərəf-zad olmaz. Biz hamımız qardaşıq. (Alqış). Bu əhvalatlar ki olub, keçib. Biz tarix oxumamışıqsa da ata-babalarımızdan qalıb, bilirik və yaxında görmüşük ki, təhlükə zamanında can, mal, vətən, övlad yolunda ayrılıq olmaz. Martda bizi qıranda hamını bir qardaş gördüm. İndi o zaman gəlib. Mən elə bilirəm ki, bizim qardaşlarımız ... Tiflisdə... istiqlaliyyət elan etdilər, bildilər ki, bunu... asanlıla əldə saxlamaq olmayacaqdır. İndi əhvalat*

*göz qabağındadır. Haman adamlar görəcəklər ki, ayrılıq yoxdur. Kişimiz, arvadımız öz namusundan ötəri bir olsunlar. Düşmənin qabağını saxlasınlar, bir-birinə havadar olsunlar. (Alqış). Bu vaxtacan bəzi adamlar evdə gizləniblər. Deyirlər pişiyi dara qısnasan dönüb üzünü cırmaqlar. İndi bizi dara qısnayırlar. Daha yer yoxdur, çarə yoxdur. Ona görə hamı gedəcəkdir. Biz gərək ordumuz üçün məşq qoyaq. Bu cür əhvalatlar bir deyil, çox olacaq. (Səslər: "Doğrudur!"). Bu istiqlaliyyəti bizə havayı verməyəcəklər. Bizim hökumət bilsin ki, o adamlar ki millət vəkil edib göndərib, onların irs-namusu pis-yaxşısı onların boynundadır. Onlar da gərək bir komandir, bir gəmi bosmanı kimi aparsınlar ki, rahi-nicata çıxsınlar. Umudvaram ki, apararlar da.*

*[...] Siz də buradan güc versəniz o qüvvə dabanbasma yenə gəlib Denikini tapacaq. Amma iş buradadır ki, biz gərək istiqlalımızı saxlayaq. Biz deyəndə bir tək biz deyil, gürcü, erməni demokratiyası və hamı istiqlaliyyəti müdafiə etməlidir. İstiqlaliyyəti saxlamağa, deyirəm, əvvəla, Rusiya inqilabı köməkdir. İkinci, biz istiqlaliyyəti saxlamasaq yoldaşlar Moskvadan gəlib istiqlalımızı əlimizdən çıxmış görsələr qorxuram onlar da tamahlanıb buradan çıxmasınlar. Znaçit,*[20] *hansı-hansı nəzərdən baxırsan istiqlal saxlanmalıdır. Rusiya inqilabı elə-belə gəlmək istəməsə də Denikinin səbəbinə bura gələcəkdir. Əgər sərhədi saxlamasaq o bolşevizmdən ki qorxurlar, o bolşevizm gələr. Bu bolşevizm gəlib Denikini çıxaranda, mən zənn edirəm ki, başqa cür rəftar eləsin. ...Yadda saxlamalıdır ki, iki tərəfdən gərək Denikini vuraq. Onsuz da, onlar döyüləcəklər. Biz də gərək qüvvətimiz ilə istiqlaliyyəti saxlayıb buradan vuraq ki, o yoldaşlar oradan vuranda canı çıxar. Sonra o aradan çıxanda iki dost istiqlaliyyət öpüşər, birləşə bilər. Bu nəzər ilə yekdil olaraq dövlətlilər də kömək etsin, bizim istiqlaliyyətimiz dinc yaşasın, çünki onlar gəlsə, güman etmirəm ki, dövlətlilərin əlində bir şey qala. Onun üçün yekdil gedək, o yoldaşlar oradan, biz də buradan basaq, bu köpək aradan götürülsün"* (***8***, I, 679-682).

Məclisi-Məbusanın 29 iyul 1919-cu ildəki 60-cı iclasında əsgəri xidmətin müddəti barəsində qanun layihəsi müzakirə edilib. Söz alan Əhmədzadə deyib ki, biz əsgəri müdafiədən ötrü istəyirik, heç vaxt hücum etməyi düşünmürük. Biz öz məmləkətimizdə rahat əyləşə bilməli, üstümüzə gələn bəlanın qabağını saxlamalıyıq. Biz gərək bəndin qabağını saxlayaq, bəndi möhkəm edək; möhkəm etməsək sel onu bərbad edər. Yaxşı nizam görmüş 40 əsgər yeri gələndə bir qalaya bədəldir. Mən əsgərlik müddətinin dörd il olmasını istərdim, ancaq indiki zamanı nəzərə alaraq əsgərlik müddəti iki il olsun (***8***, I, 906).

Məclisin 18 oktyabr 1919-cu ildəki 85-ci iclasında qızıl və gümüş ixracı haqqında qanun layihəsi müzakirə edilərkən də Ə.Əhmədzadə öz fikrini bildirib (***8***, II, 287, 288).

Parlamentin 23 oktyabr 1919-cu il tarixli 87-ci iclasının sonunda önəmli bir hadisə baş verib – Məclisi-Məbusanda bitərəflər fraksiyası parçalandıqda onların 8 nəfəri: Fətəli xan Xoyski, Mirzə Əsədullayev, Əsədulla Əhmədzadə, Cəlil bəy Sultanov, Yusif Əhmədzadə, Baxış bəy Rüstəmbəyov, Abuzər bəy Rzayev və Ağa Aşurov "Müsavat" fraksiyası ilə birləşərək Məclisi-Məbusanda həlledici səsli "Müsavat və bitərəflər" fraksiyasını yaradıblar. 1919-cu ilin sonlarında fraksiya üzvlərinin sayı 38-ə çatıb və bununla da müsavatçıların mövqeyi xeyli güclənib (ARDA, fond 895, siyahı 1, iş 99, vərəq 3a). Ə.Əhmədzadə və silahdaşının "Müsavat" fraksiyasına qoşulması onların gerçəkdən Vətən naminə birləşməyin zəruriliyini dərk etməsindən irəli gəlir. Onlar "Müsavat"a dəstək verməyi qərara almaqla müxalifətin hücumlarının mühüm bir hissəsini də öz üzərlərinə yönəltdilər.

Məclisin 25 oktyabrdakı yığıncağında mətbuat nizamnaməsi haqqında qanun layihəsinin müzakirəsində Ə.Əhmədzadə çıxışına Molla Nəsrəddin və oğlu haqqındakı lətifə ilə başlayaraq "bizim sol arkadaşlarımız da deyirlər ki, qəzetə çıxaranlar gərək uşaq olsun" cümləsi ilə davam edir və qeyri-məqbul yazılara görə mətbuat orqanının məhkəməyə verilməsini öngörən qanunu dəstəkləyib (***8***, II, 343).

[20] Deməli (rusca).

Parlamentin 15 dekabr tarixli 107-ci iclasında gəlir vergisi miqdarının artırılması haqqında (***8***, II, 612-613), 18 dekabr tarixli 108-ci iclasında ticarət və nafiə şəhadətnamələrindən şəhərlər xeyrinə alınan vergi miqdarının 50 faizədək artırılması haqqında müzakirələrdə də (***8***, II, 623) Ağa Əsədulla öz sözünü deməkdən çəkinməyib.

**5. Kommunistlərin Zindanında**

İlk müstəqil Azərbaycan Cümhuriyyətini süngülərlə yıxan bolşeviklərin qurduğu sovet hakimiyyəti xalqa fəlakət və göz yaşları gətirdi. Allahsızlığı özünə rəsmən ideologiya seçərək Mübariz Allahsızlar İttifaqı yaradan bu imansız quruluş dinə, dindarlara qarsı açıq müharibə elan etdi. Belə bir zamanda Ağa Əsədullanı gözü götürməyən, ona düşmən olan bəziləri xainlik yolu seçərək minlərcə insanın qaniçən cəlladına çevrilmiş Azərbaycan Dövlət Siyasi İdarəsinə (DSİ xalq arasında rusca qısaltma "QPU" adıyla daha çox tanınır) onun məşhur ruhanilərlə oturub-durması, onlarla birdə sovet hakimiyyəti əleyhinə təbliğat aparması haqqında məlumat ötürdülər. DSİ anındaca reaksiya verərək 7 fevral 1930-cu ildə Əhmədzadəni zindana atdı (***4,*** 8). Bununla o, ikinci dəfə bolşevik türməsinin "qonağı" olurdu – ilk dəfə 1920-ci ildə "ÇeKa" onu Cümhuriyyət Parlamentinin üzvü kimi tutuqlamış, iki ay sonra buraxmışdı.

Azərb. DSİ Şərq Şöbəsinin müvəkkili Süleymanovun 20 fevral 1930-cu ildə müttəhim Ə.Əhmədovla apardığı istintaqın protokolunda Əhmədzadənin dilindən qeyd edilib ki, mən bəzən həftədə, yaxud on gündə bir dəfə şeyxülislam *Molla Ağa*'ya[21] baş çəkirəm. Onun yanında bəzən mərsiyəxan *Mirzə Kamiyab*'la, *Seyid Həsən'*lə, Molla Ağanın qonşusu *Həmid*'lə, *Mirzəağa Babayev'*lə görüşürəm və daha kimlərlə görüşdüyümü xatırlamıram. Mənə irəli sürülmüş ittihamda özümü günahkar bilmirəm. Sovet hakimiyyətindən narazı olmağa heç bir əsasım yoxdur. Başa düşürəm ki, çarizm mənim vətənimi və millətimi əsarətdə saxlayıb, sovet hakimiyyəti isə mədəniyyətə və maarifə aparır. Doğrudur, bəzən mollaları, o sıradan başlıca olaraq Molla Ağanı ziyarət edirəm, ancaq biz antisovet söhbətlər etmirik (***5,*** 9).

24 mart 1930-cu ildə istintaq davam etdirilib və Əhmədzadə öncə dediklərini dəqiqləşdirib və bunları da əlavə edib:

*"Mənə verilmiş suala cavab verirəm ki,* ***Kərbəlayı Həmid****, deyəsən* **Babayev***'dir, Molla Ağanın mənzilinin yaxınlığında yaşayır və biz onunla orada tez-tez görüşürük. O, ticarətlə məşğuldur; yanılmıramsa qəssab idi. Həmin Həmid mənim uzaq qohumumdur. Molla Ağanın yanında biz yalnız və yalnız gündəlik həyatımızdan söhbət etmişik və heç zaman siyasi mövzulara toxunmamışıq. Doğrudur, bəzən növbələr və ən zəruri ərzaqın çatışmazlığı haqqında danışmışıq. Ancaq məscidlərin və kilsələrin bağlanması haqqında, xatırladığım qədəriylə, aramızda söhbət olmayıb"* (***5***, 13).

Azərbaycan DSİ Şərq Şöbəsinin rəisi *Borşşov*'un və böyük müvəkkili *Z.Əliyev*'in 23 iyun 1930-cu ildə imzaladıqları qərarla deiyilir ki, vətəndaş Əhmədov Əsədullanın tutuqlanması önləyici tədbirini ləğv etməli və onu sərbəst buraxmalı, bu haqda DSİ Uçot-Qeydiyyat-Statistika Şöbəsini və Azərb. DSİ-yə nəzarət edən prokuroru bilgiləndirməli.

24 iyun 1930-cu ildə isə Azərb. DSİ Şərq Şöbəsinin müvəkkili Abdullabəyov vətəndaş Əhmədov Əsədulla Əhməd oğlunun Cinayət Məcəlləsinin II hissəsinin 72-ci maddəsi üzrə ittihamına dair 1930-cu il 1021 №-li istintaq işini gözdən keçirərək müəyyənləşdirib ki, Azərb. DSİ bu ilin fevral ayında onu şeyxülislam Molla Ağazadənin antisovet dini təriqəti qruplaşmasına daxil olması haqqında Azərb. DSİ-də olan məlumatlara əsasən həbs edib. Bu qruplaşma iştirakçılarının yığıncaqlarında o, hakimiyyətin dini sıxışdırması və eləcə də ərzaq böhranı, növbələr haqqında antisovet səciyyəli söhbətlər edib, bu şəraiti sovet hakimiyyətinin sonunun tez gələcəyi ilə izah edib, beləliklə, ətrafında antisovet ünsürləri toplayıb. İstintaq aparılan zaman dindirmədə Əsədulla Əhməd oğlu özünün antisovet təşviqatını inkar edib,

---

[21] Axund Molla Ağa Ağaəlizadə (1871-1954).

ancaq ərzaq böhranı və növbələr haqqında danışması faktını inkar etmir. Dediklərinə görə, söhbətlərində heç zaman siyasi tənqidlə məşğul olmayıb. Nəzərə alaraq ki: 1) Əsədulla Əhməd oğlu Əhmədovun daxil olduğu qruplaşma ləğv edilib və hər hansı bir antisovet hərəkətdə özünü göstərə bilməyib və 2) işdə həm də yetərincə kəskin ittihamlar yoxdur ki, Əsədulla Əhmədovu Cinayət Məcəlləsi II hissəsinin 72-ci maddəsində nəzərdə tutmuş cinayət əlamətlərinə görə ittiham etməyə əsas yaratsın. Müttəhimin ahıl yaşda olmasını da nəzərə alaraq düşünürəm ki, 70 yaşlı, ailəli, partiyasız, Müsavat Parlamentinin keçmiş üzvü və keçmişdə Azərb. Fövqəalə Komissiyasının həbs etdiyi Bakı şəhər sakini Əsədulla Əhməd oğlu Əhmədovun ittihamı üzrə 1021 №-li işin bundan sonrakı istintaqının aparılması dayandırılsın və arxivə verilsin. Ondan şəhərdən çıxmaması haqqında alınmış dilkağızı ləğv edilsin.

Bu qərarı Borşşov və Neverov da təsdiqləyib, Azərb. DSİ-yə nəzarət edən prokuror da 6 iyul 1930-cu ildə "razıyam" deyə qol çəkib (*5*, 14).

9 iyul 1930-cu ildə Azərb. DSİ Kollegiyasının məhkəmə iclasında hökm çıxarılıb ki, 70 yaşlı Əhmədov Əsədulla Əhməd oğlu həbsdən buraxılsın, iş dayandırılsın və arxivə təhvil verilsin, şəhərdən çıxmaması haqqında alınmış dilkağızı ləğv edilsin (*5*, 15).

Ağa Əsədullanın nəvəsi *Oqtay Əhmədov* jurnalist *Dilqəm Əhməd*'ə verdiyi müsahibədə bildirib ki, mənim atam Əliəsgər Leninqrad şəhərində ali hüquq təhsili alıb. Bakıya qayıdaraq məhkəmədə xidmət edib, ona görə də Cümhuriyyətdən sonra atası Əsədullanı repressiyalardan qoruya bilib. Deməli, Əhmədzadənin "QPU" cəngindən qurtulmasında oğlunun mühüm rolu olub.

### 6. Ömrün Qürubunda. Varisləri

Artıq yaşlaşmış və sovet hakimiyyətinin tam küncə sıxışdırdığı Əhmədzadənin nə ağalığı qalıb, nə də tacirliyi. Heç bir siyasətə qoşulmadan başını aşağı salaraq nəvələriylə gün keçirib.

1883-cü ildə Hacı Zeynalabdin Tağıyevin xeyir-duası ilə ailə qurduğu dayısı qızı *Səyyarə Əliabbas qızı Tağıyeva* (?-29.09.1913) Ağa Əsədullaya oğulları Məhəmmədhəsən, (Məhəmməd)sadıq və Əliəsgəri, qızları Sürəyya və Fatiməni bəxş edib.

Məhəmmədhəsən (1884-1959) ixtisasca neft mühəndisi olub. Leninqradda ali təhsil alıb. Onun oğlu Midhət Əhmədov (doğ. 1914) musiqiçi, bəstəkardır. Azərbaycanın əməkdar müəllimidir.

Moskva Şəhər Mərkəzi Dövlət Tarix Arxivində onun böyük oğlu *"Ağa Məhəmmədsadıq*[22] *Ağa Əsədulla oğlu Əhmədov"*un (1892, Bakı-03.08.1926, İstanbul; Bakıda dəfn edilib) tələbə şəxsi işi saxlanılır. Moskva ubKommersiya İnstitutuna təqdim etmək üçün öz əli ilə yazdığı tərcümeyi-halı da bu işdədir. Orada oxuyuruq:

*"Mən 1892-ci ilin may ayında – Qafqazda dəhşətli vəba xəstəliyi tüğyan edən vaxt doğulmuşam. Valideynlərim savadsız olsalar da hər halda o dönəm fanatik ruhlu müsəlmanlarından yuxarıda dayanırdılar və dini-mərasim basqısı bizim evə elə də təsir edə bilməmişdi. Həm də atam dövlətli tacir olduğuna görə dünyəvi həyat tərzi keçirirdi, bu, bizim ailə məişətimizdə əksini tapırdı. Bütün bunlar mənim nisbətən doğru tərbiyəm üçün əlverişli şərait yaradırdı. Ancaq mənə qayğı göstərən atam daha da irəli getdi. 10 yaşıma çatanda atam başa düşdü ki, bizim ailənin qapalı həyatı mənim inkişafım üçün yetərli deyil; məni tanış rus həkiminin ailəsinin tam himayəsinə verdi. Bu şəraitin mənim sonrakı inkişafımın bütün gedişində mühüm əhəmiyyəti oldu. O ailə yüksək dərəcədə ziyalı, səmimi və təhsilli idi. Bu adamlar mənə çox böyük təsir göstərdilər və mən onlardan çox yaxşı şeylər öyrəndim. Həkimə qulaq asan atam məni o zaman açılan kommersiya məktəbinə qoymaq istədi. Mən o ailəni tərk edəndən sonra da onların mənə təsiri kəsilmədi. Həkimin böyük, ağıllı və oxumuş qızı məndə mütaliəyə həvəs yaratdı və ümumən mənim inkişafıma çox vaxt ayırdı. Məktəbdə*

[22] Adı rəsmi sənədlərdə "Məhəmmədsadıq" getsə də sovet dönəmində "Sadıq" çağırılıb.

*mən ilk illər alababat oxuyurdum. Daha çox tənbəllik edirdim. Ancaq yuxarı siniflərə keçincə məşğələlərə girişdim və son siniflərdə yetərincə uğur qazandım. Özəlliklə xoşladığım fənlərə dair sinif məşğələləri ilə kifayətlənmədim və xeyli əlavə kitablar da oxudum. Son illər rus ədəbiyyatı ilə güclü maraqlandım və bütün boş vaxtımı buna sərf etdim"* (***6***, 1).

Ağa Məhəmmədsadıq 19 may 1902-ci ildə Bakı Kommersiya Məktəbinə daxil olaraq oranı 28 may 1913-cü ildə bitirib. Elə həmin il də sənədlərini Moskva Kommersiya İnstitutuna təqdim edib. Görünür, qiymətləri yüksək olmadığına görə buraya qəbul edilməyib. Həyatının bundan sonrakı dönəmini əmisi oğlu, xüsusi xidmət polkovniki *Oqtay Əhmədov* (doğ. 1958) açıqlayıb. Onun bizə bildirdiyinə görə, Sadıq Xarkovda tibb fakültəsini bitirib. Ali təhsilini başa vuraraq vətənə döndükdən sonra həkim işləyib.

Sadıq məşhur Azərbaycan milyonçusu *Murtuza Muxtarov'*un (1855-1920) qızlığı (əslində onun qardaşı Balaxanın qızı) *Umxanım xanım'*la ailə qurub. Bu xanım yaxşı musiqi təhsili almışdı. Azərbaycanın ilk qadın opera solistlərindən biri idi. "Şahsənəm" operasını Qlierin ona ithafən bəstələdiyini eşitmişəm. Bu cütlüyün 2 oğlu olub: Murtuza və Muxtar. Böyük oğula Muxtarovun şərəfinə "Murtuza" adı qoyublar. Murtuza (1924-2000) 13 yaşında ikən – 1937-ci ildə Bakı kinostudiyasının çəkdiyi "Dəcəl dəstə" filmində əsas qəhrəman Heydərin rolunda oynayıb. O, 2-ci Dünya müharibəsinin ilk günündən sonunadək kapitan rütbəsində Berlinə qədər vuruşa-vuruşa gedib. SSRİ Ədliyyə Nazirliyinin mərkəzi aparatında çalışıb, general rütbəsinədək yüksəlib. Hüquqşünaslığa dair bir neçə kitabın müəllifidir.. Muxtar isə 5-6 yaşı olarkən (10.08.1931) vəfat edib.

Sadıq Əhmədov 1930-cu illərin başlarında Azərbaycanın İstanbuldakı konsulluğunda diplomatik korpusda çalışıb. Oraya ailəsi ilə gedib. Oqtay Əhmədovgildə onların İstanbulda çəkilmiş bir fotosu varmış. Şəkildə Sadıq Taxta körpüdə yoldaşı Umxanımla avtomobildə əyləşmiş halda təsvir edilib.

Əri Sadıq uzun sürməyən skarlatina (qırmızı atəş) xəstəliyindən Türkiyədə 1926-cı ildə vəfat etdikdən sonra Umxanım onun cənazəsini və uşaqlarını da götürərək Bakıya qayıdıb. 1930-cu illərdən Azərbaycan Opera və Balet Teatrında solist kimi çalışıb.

Umxanım ozamankı ənənələrə uyğun olaraq Sadığın kiçik qardaşı Əliəsgərə (Oqtay Əhmədovun atasına) ərə gedib, ancaq ondan övladı olmayıb (***15***, II, 273-276).

Əsədullanın kiçik oğlu *Əliəsgər* (1905-1978) Mərdəkanda doğulub. Bu qəsəbədə Ağa Əsədullanın böyük bağı vardı. Sonralar bolşeviklər oranı polis məktəbi ediblər. Əliəsgər ali hüquq təhsili alıb və məhkəmə sistemində çalışıb.

Ə.Əhmədzadənin böyük qızı *Sürəyya* (?-06.03.1926) gimnaziya bitirmiş savadlı bir xanımdı. O, dönəminin tanınmış ziyalılarından olan bakılı *Abbasəli Hacı Balakərim oğlu Kərimov*'la (1879-1942) ailə qurmuşdu. Abbasəli Kərimov 1902-ci ildə Sankt-Peterburq Mülki Mühəndislər İnstitutuna daxil olaraq oranı 1912-ci ildə fərqlənmə diplomu ilə bitirib və Bakıya dönərək ağ neft kəmərində qulluq edib.

1918-ci ildə o, Bakı Şəhər Dumasına üzv qəbul edilib. Həmin il onu Bakı Şəhər İdarəsində təsərrüfat şöbəsinin müdiri vəzifəsində görürük. Buradan aydınlaşır ki, o, 1917-1918-ci illərdə artıq Bakıda yetərincə nüfuz qazanmış ziyalılardan və ictimai xadimlərdəndi.

Oqtay Əhmədovun bizə bildirdiyinə görə, Kərimov sovet hakimiyyəti illərində Azərneft sistemində uzun müddət baş mühəndis vəzifəsində çalışıb və 1942-ci ilin martında xəstələnərək dünyasını dəyişib.

Kərimovlar ailəsinin 3 oğlu olub: *Kərim(ağa), Süleyman, Mustafa.* Onların anası Sürəyya xanım gənc yaşda dünyasını dəyişib. Ağa Əsədulla körpə nəvələrini yad əllərə buraxmayıb; onları öz evinə gətirərək himayəsinə götürən Əhmədzadə yoldaşı Səyyarə xanımla birgə onların təlim- tərbiyəsinə ciddi fikir verib. Bunun nəticəsində böyük nəvəsi *Kərim(ağa) Kərimov* (1917-2003) sonralar 25 il Sovetlər Birliyinin Kosmik Gəmilərin Uçuş Sınaqları üzrə Dövlət Komissiyasının sədri (1966-1991) olub. General-leytenant *Kərim Kərimov* bu gün Azərbaycan xalqının qürur mənbəyidir. Bunu da qeyd etməliyik ki, Əsədulla

Əhmədzadə bir müddət Mustafa Sübhi küçəsində yaşayıb, sonra indiki Əhməd Cavad küçəsindəki 6-cı evə köçüb və yetim nəvələrini də orada böyüdüb.

Kərimovların ortancıl oğlu *Süleyman* (1921-1941) hərbi məktəb bitirib. II Dünya savaşının ilk illərində Ukrayna cəbhəsində sərhəd qoşunlarında komandirlik edib və Lvov şəhəri ətrafındakı döyüşlərdə bütün heyəti ilə birgə həlak olub. Sevimli nəvəsinin ölümü babası Əsədulla Əhmədzadəni kökündən sarsıdıb və bu dərdə dözməyən baba da çox keçmədən dünyasını dəyişib və Çəmbərəkənd məzarlığında dəfn olunub. Sonralar oğlu Əliəsgər onun məzarını Yasamal qəbiristanlığına köçürüb.

Ailənin kiçik oğlu *Mustafa* (1923-1960) tanınmış sovet türkoloqlarından olub. Moskva şəhərində yaşayı. Türkologiya üzrə bir sıra elmi əsərlərin müəllifi idi. O, eyni zamanda bacarıqlı bir tərcüməçi olaraq türk ədəbiyyatını rus dilinə çevirirdi. Məsələn, Yaşar Kamalın "İncə Mehmet" romanını rus oxucusu onun tərcüməsində oxuyub. SSRİ Mədəniyyət Nazirliyinin 1960-cı ildə Türkiyənin İzmir şəhərində keçirdiyi kitab yarmarkasında iştirak etdikdən sonra Avstriyanın Vyana şəhərindən Moskvaya dönüb. Təyyarə eniş zamanı qəzaya uğrayıb və o, başqa sərnişinlərlə birgə həlak olub (*15,* IV, 133-137).

Ağa Əsədullanın kiçik qızı *Fatimə* Azərneftdə neft satışı idarəsində işləyən *Abdulla Ağamalıoğlu*'nda ərdə olub (***4,*** 9a). Onun haqqında da bilgi yox dərəcəsindədir.

**Nəticə**

Araşdırma sonucunda gözlərimiz önündə xalqını ürəkdən sevən tərəqqipərvər və fədakar bir insanın işıqlı portreti canlanır və Əsədulla Əhmədzadə kimi dəyərli bir millət xadiminin indiyədək unudulması və layiqli qiymətini almaması adamın ürəyini göynədir. İnanmaq istərdik ki, tarixçilərimiz onun həyat və fəaliyyətini bundan sonra ciddi elmi tədqiqatların mövzusuna çevirəcəklər.

## QAYNAQLAR

***Arxiv bəlgələri***

1. ARDA (AR Dövlət Arxivi), fond 100, siyahı 2, iş 546.
2. ARDA, fond 895, siyahı 1, iş 36.
3. ARDA, fond 895, siyahı 1, iş 204.
4. ARDTXA (AR Dövlət Təhlükəsizlik Xidməti Arxivi), iş № 1021.
5. ARDTXA, PF-274, II cild.
6. MŞMDTA (Moskva Şəhər Mərkəzi Dövlət Tarix Arxivi), fond 417, siyahı 7, iş 632.

***Kitablar***

7. Aslan, Betül. I Dünya Savaşı Esnasında Azerbaycan Türkleri'nin Anadolu Türkleri'ne "Kardaş kömeği (yardımı)" ve Bakü Müslüman Cemiyeti-Hayriyesi. Ankara: Atatürk Yüksek Kurumu Atatürk Kültür Merkezi Yayını, 2000.
8. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (stenoqrafik hesabatlar). 2 cilddə. Bakı: "Azərbaycan", 1998.
9. "Azərbaycan" qəzeti. Transliterasiya edənlər: Mehdi Gəncəli, Azad Ağaoğlu. II cild. Bakı: "Çaşıoğlu", 2022; IV cild. Bakı: "Çaşıoğlu", 2022; V cild. Bakı: "Çaşıoğlu", 2022; VI cild. Bakı: "Çaşıoğlu", 2023; VII cild. Bakı: "Çaşıoğlu", 2023; VIII cild. Bakı: "Çaşıoğlu", 2023; . IX cild. Bakı: "Çaşıoğlu", 2023.
10. Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin Nizamnaməsi. Bakı, 1913.
11. Emircan, A.Ali – Gerger, M.Emin. Büyük Ermenistan Hayali ve Kars'tan Karabağ'a Ermeni Vahşeti. İstanbul: Cemre Yayınları, 1992.
12. Əfəndizadə Şəfiqə. Seçilmiş əsərləri (1903-1925). Transfoneliterasiya edən və ön sözün müəllifi: Şəhla Abdullayeva. Bakı: "Elm və təhsil", 2017.
13. İlkin, Qılman. Bakı və bakılılar. 3-cü nəşr. Bakı: "Nurlar", 2006.
14. Məmmədova Nüşabə. "Nəşri-Maarif" Cəmiyyətinin yaranması və fəaliyyəti. Bakı: "Elm", 2005.

15. Mərdanov Misir, Tahirzadə Ədalət. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar. V cild. Bakı: "Təhsil", 2021; VI cild. Bakı: "Təhsil", 2021; VII cild. Bakı: "Təhsil", 2022.
16. Mustafayev Əlməmməd. Xatirələri, hekayə və felyetonları. Bakı: "Yazıçı", 1985.
**17. Rəsulzadə Məhəmmədəmin. Əsərləri. 3-cü cild. Prof. Şirməmməd Hüseynovun nəşri. Bakı: "Elm", 2012.**
18. Sarıahmetoğlu, Nesrin. Azeri-Ermeni İlişkileri (1905-1920). Ankara: Türk Tarih Kurumu, 2006.
19. Рустамова-Тогиди Солмаз. Алимардан бек Топчибашев. Армянский фактор в Бакинских событиях 1905-1906 и 1918 гг. Документы из Парижского архива. Баку: "Aspoliqraf", 2018.

***Məqalələr***

20. Bakı xəbərləri. // "Həyat" qəzeti, 11.09.1905, № 63.
21. Rəsulzadə Məhəmmədəmin. **Cəmiyyəti-Xeyriyyənin on illiyi. // "Açıq söz", 15.11.1915, № 35**
22. Бакули. Об интеллигентных гласных г. Баку. // Газ. «Бакинец», 7.XII.1907, № 16.

***Qəzetlər və sorğu ədəbiyyatı***

23. "Açıq söz", 15.11.1915, № 35.
24. "Azərbaycan", 15.11.1918, № 40; 03.01.1919, № 78; 10.02.1919, № 110; 13.02.1919, № 113; 18.02.1919, № 116; 31.03.1919, № 147; 30.04.1919, № 169; 30.05.1919, № 191; 05.06.1919, № 196.
25. "Həyat", 11.09.1905, № 63.
26. «Бакинец», 07.12.1907, № 16.
27. Бакинский настольный календарь на 1905 г. Баку, 1905.
28. Бакинский спутник на 1908 г. Баку, 1908.
29. «Баку», 26.11.1906, № 25.
30. Кавказский календарь на 1904 г. Тифлис, 1903; Кавказский календарь на 1917 г., книга 2. Тифлис, 1916.
31. «Каспий», 11.09.1905, № 176.
32. «Каспий», 26.10.1903, № 230.

***İnternet materialı***

33. Dilqəm Əhməd. Cümhuriyyət deputatının nəvəsi: **"Tağıyev vacib sənədləri babama həvalə edib". // (05.10.2018)** https://teleqraf.com/news/toplum/187436.html.